https://doi.org/10.36719/2706-6185/43/67-72

**Mətanət İsmayılova**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
https://orcid.org/0000-0002-3509-9253
УДК: 378.147.88
matanatismayilove@gmail.com

# Subbakalavriat və bakalavriat səviyyəsində sərbəst işlərin ilkin tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasındakı rolu

**Xülasə**

Ali və orta ixtisas təhsil sistemində təhsil alan tələbələrin sərbəst işi onların akademik və peşəkar inkişafında mühüm rol oynayır. Bu məqalə subbakalavriat və bakalavriat səviyyəsində sərbəst işlərin tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasındakı rolunu araşdırır. Tədqiqat göstərir ki, sərbəst iş tələbələrə müstəqil öyrənmə, analitik düşünmə və özünü idarəetmə bacarıqları qazanmağa imkan verir. Təhsil prosesinin müxtəlif mərhələlərində sərbəst işin formaları və məqsədləri dəyişir. Bakalavr səviyyəsində əsasən ədəbiyyat araşdırması və kurs materiallarının öyrənilməsi, magistraturada elmi layihələr, doktoranturada isə əsaslı tədqiqat fəaliyyətləri ön planda durur. Sərbəst işin effektiv təşkilində vaxtın idarə edilməsi, motivasiya, İKT vasitələrindən istifadə və müəllim-tələbə əlaqəsinin keyfiyyəti kimi amillər mühüm rol oynayır. Azərbaycan ali təhsil sistemində son illərdə sərbəst işə yönəlmiş proqramların hazırlanmasına xüsusi diqqət yetirilir. Təhsil müəssisələri tələbələrin fərdi inkişafına, peşəkar səriştələrinin formalaşdırılmasına və əmək bazarının tələblərinə cavab verən kadrların hazırlanmasına çalışırlar. Nəticə etibarilə, sərbəst iş tələbələrin yalnız akademik biliklərini deyil, həm də şəxsi və peşəkar keyfiyyətlərini inkişaf etdirən mühüm bir vasitədir. Onun düzgün təşkili tələbələrin müstəqil öyrənmə, tədqiqat aparmaq və innovativ düşünmə bacarıqlarını artırır.

***Açar sözlər:*** *subbakalavriat, sərbəst iş, elmi layihələr, müstəqil öyrənmə, innovasiya, İKT vasitələri, müasir təhsil*

**Matanat Ismayilova**
Azerbaijan State Pedagogical College under ASPU
https://orcid.org/0000-0002-3509-9253
UDC: 378.147.88
matanatismayilove@gmail.com

# The Role of Primary Research skills in the Formation of individual work at the level of Sub-undergraduate and Undergraduate

**Abstract**

Independent work plays a crucial role in the academic and professional development of students in higher and secondary specialized education systems. This article explores the role of independent work in developing initial research skills at the sub-bachelor and bachelor levels. Research demonstrates that independent work enables students to acquire skills in independent learning, analytical thinking, and self-management. The forms and objectives of independent work vary across different stages of the educational process. At the bachelor level, the focus is primarily on literature review and course material exploration, while master's programs emphasize scientific projects, and doctoral studies concentrate on comprehensive research activities. Critical factors in the effective organization of independent work include time management, motivation, utilization of information and communication technologies, and the quality of teacher-student interactions. In recent years, the Azerbaijani higher education system has paid special attention to developing

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

programs oriented towards independent work. Educational institutions strive to support students' individual development, foster professional competencies, and prepare human resources that meet labor market demands. Ultimately, independent work serves as a pivotal mechanism for developing not only students' academic knowledge but also their personal and professional qualities. Its proper organization enhances students' capabilities in independent learning, research, and innovative thinking, thus preparing them for the complex challenges of contemporary professional environments.

***Keywords:*** *sub-bachelor's degree, independent work, research projects, individual learning, innovation, ICT tools, modern education*

## Giriş

Müasir ali təhsil sistemində tələbələrin sərbəst işi, özünü təkmilləşdirmə bacarıqlarının inkişafı üçün həlledici rol oynayır. Bu prosesin əsas məqsədi tələbənin təhsil proqramını müsətəqil şəkildə idarə etmək bacarıqlarını öyrənməsini təmin etməkdir. Sərbəst işin ali və orta ixtisas təhsil prosesindəki rolu, subbakalavriat və bakalavriat səviyyəsində təhsil alan tələbələrin akademik biliklərinin dərinləşdirilməsi, analitik bacarıqlarının təkmilləşdirilməsi və özünü idarəetmə vəzifələrinin inkişafında əhəmiyyətlidir. Sərbəst iş, çox vaxt müssətəqil tədris strategiyalarının yaradılması, özünü idarəetmə bacarığı və vaxtı səmərəli idarə etmək kimi aspektləri özündə birləşdirir. Ali təhsil mərhələləri arasında bakalavrdan magistraturaya və doktoranturaya keçid etdikcə, sərbəst işin formaları, tələbləri və məzmunu əhəmiyyətlə dəyişir.

Xüsusi ilə ali təhsil pilləsinin bakalavriat səviyyəsində çox vaxt ədəbiyyatın araşdırılması və kurs materiallarını öyrənmək üstünlük təşkil edir, magistratura səviyysəində ixtisası dərinləşdirməklə, ixtisaslaşma üzrə elmi və praktiki layihələr ön plana çıxır, doktoranturada isə əsasən tədqiqat fəaliyyətləri əsas çəkiyə malik olur. Sərbəst işlərin həyata keçirilməsində əsas pedaqoji problemlərə vaxtın düzgün idarə edilməsi, ilkin tədqiqatçılıq və özünü motivasiya etmə bacarığı, ən azı bir xarici dil bilmə, həmçinin İKT vasitələrindən səmərəli istifadə kimi faktorlar daxildir. Bundan başqa, müəllim-tələbə əlaqəsinin keyfiyyəti və sərbəst işin obyektiv qiymətləndirilməsi də təhsil prosesinin effektivliyini şərtləndirən amillər sırasına daxildir.

**Tədqiqat**

Ali təhsil islahatları və yeni təhsil standartlarına keçid şəraitində universitetlərdə təhsil prosesinin təşkili üçün yeni və effektiv strategiyaların hazırlanması vacib bir məsələdir. Bu strategiyalar təhsil prosesinin keyfiyyətini artırmaqla yanaşı, tələbələrdə peşəkar səriştələrin formalaşdırılması məqsədini də güdür. Bu baxımdan, tədrisin səmərəliliyini artırmaq üçün innovativ yanaşmaların tətbiqi və müasir təhsil metodlarının istifadəsi xüsusi əhəmiyyət kəsb edir.

Son illərdə Azərbaycan ali təhsil sistemində sərbəst işə yönəlmiş tədris planlarının və proqramlarının hazırlanması praktikasına geniş yer verilmişdir. Təhsil müəssisələrində sərbəst işin əhəmiyyəti həm pedaqogikanın nəzəri məsələləri ilə məşğul olan mütəxəssislər, həm də tədris prosesində tədqiqatçı kimi çıxış edən müəllimlər tərəfindən vurğulanır. Onların fikrincə, təhsil səviyyəsindən asılı olmayaraq sərbəst işin düzgün təşkili təhsilin keyfiyyətini artırmaq və gələcək məzunların əmək bazarında rəqabətqabiliyyətliliyini təmin etmək üçün ən təsirli vasitələrdən biridir.

Bu kontekstdə, tədqiqatın məqsədi tələbələrin sərbəst iş fəaliyyətinin onların tədris prosesindəki aktivliyini nə dərəcədə artırdığını, həmçinin bu fəaliyyətin nəticələrinə və tələbələrdə müvafiq səriştələrin formalaşdırılmasına necə təsir etdiyini təhlil etməkdir. Buna görə də "...yüksək keyfiyyətli ali təhsil almaq, peşəkar səriştələrin formalaşdırılması ali məktəbin istənilən təhsil müəssisəsinin əsas vəzifəsidir. Bu məqsədə çatmaq üçün müxtəlif imkanlardan istifadə etmək lazımdır" (Sedakova, 2013, s. 109), məhz bu səbəbdən subbakalavriat və bakalavriat səviyyəsində sərbəst işin tətbiqində ortaya çıxan fərqləri araşdırmaqla, tədris prosesinin təkmilləşdirilməsi üçün təkliflər irəli sürüləcəkdir.

Müasir pedaqogikada müstəqil təhsil məsələsi kifayət qədər tədqiq edilmişdir və bu istiqamətdə müxtəlif yanaşmalardan istifadə etmək mümkündür. Tədris prosesində sərbəst işin uğurla tətbiqi və həyata keçirilməsi, əsasən, universitetlərin düzgün hazırlanmış və icra edilmiş strateji planlarına əsaslanır. Bu yanaşma tələbələrin yalnız akademik biliklərini deyil, həm də əmək bazarı və

işəgötürənlərlə qarşılıqlı əlaqə bacarıqlarını inkişaf etdirmək, praktiki təcrübələrdə iştirak etmək və təhsil proqramının spesifik istiqamətlərinə uyğun fərdi fəaliyyətlər həyata keçirmək imkanı yaradır.

Bu kontekstdə universitetlər tez-tez tələbələrə müxtəlif seçmə fənlər və xüsusi kurslar təklif edirlər. Bu, sərbəst iş üçün ayrılan saatların artırılması ilə tələbələrin təhsil proqramına uyğun peşəkar səriştələr əldə etməsinə şərait yaradır. Belə bir yanaşma xüsusilə peşəkar hazırlıq səviyyələri üçün geniş tətbiq olunur və praktik effektivliyini göstərir (Hüseynzadə, 2010; Əkbərov, 2017).

Yüksək bilik səviyyəsinə çatmaq və peşəkar inkişaf üçün zəruri olan səriştələrin formalaşdırılması tələbələrin akademik fənlərin materiallarını mənimsəməsini, öz təhsil fəaliyyətlərini tənzimləməsini və bu fəaliyyətlərdə müəyyən məntiqin təmin olunmasını tələb edir. Təlim prosesində həyata keçirilən hər mərhələ özünəməxsus tənzimləmə mexanizmləri və özünü tənzimləmə bacarıqlarının inkişafını nəzərdə tutur. Təhsil fəaliyyətinin özünü tənzimləmə prosesi mürəkkəb olsa da, vahid bir sistem kimi fəaliyyət göstərməsi vacibdir. Bu yanaşma akademik kontekstdə özünütənzimləmə bacarıqlarının formalaşmasında bir səriştəlik kimi tanınır.

Müasir təhsil prosesində, xüsusən də peşə təhsili məqsədi ilə birbaşa tədris saatlarının azaldıldığı bir şəraitdə, müəllim və tələbə arasında konstruktiv dialoq qurulması mühüm əhəmiyyət kəsb edir. Özünütəhsil üçün lazımi şəraitin yaradılması tələbələrin sərbəst işləmək bacarıqlarını inkişaf etdirir. Bu baxımdan, müəllimin tələbə ilə daha çox işləməsi və onu sərbəst işə həvəsləndirməsi əsas şərtlərdən biridir. Bununla belə, praktik müəllimlər tez-tez universitetlərin tələbələrə bu iş üçün kifayət qədər saat təmin etmədiyini, fərdi məsləhətləşmələrin məhdud olduğunu qeyd edirlər. Bu, müasir təhsil mühitində daha balanslı yanaşmaların zəruriliyini vurğulayır.

Fənlərin tədris planlarını və iş proqramlarını təhlil edərkən müşahidə olunur ki, universitetlərdə tələbələrin sərbəst işlərinin ən çox yayılmış növlərinə ixtisaslaşdırılmış ədəbiyyatın öyrənilməsi, müxtəlif anlayışların təhlili, kurs işlərinin hazırlanması, hesabatların, esselərin, abstraktların, təqdimatların tərtibi və məruzələrin təşkili daxildir. Bu fəaliyyətlər həm subbakalavriat və bakalavriat, həm də magistratura səviyyələrində təhsilalanların sərbəst iş nəticələrinin əhəmiyyətli hissəsini təşkil edir. Lakin təəssüf ki, təhsilin müxtəlif səviyyələrində eyni modul çərçivəsində fənlərin iş proqramlarının məzmunu çox az dəyişir; sərbəst işin növləri və formaları, həmçinin nəzarət mexanizmləri eyni qalır. Alternativ olaraq, ənənəvi hesabatların əvəzinə əsas anlayışların sintezi və sistemləşdirilməsi üçün esselər, təqdimatlar və müqayisəli cədvəllərin istifadəsi təşviq olunur.

Tədris planlarının və fənlərin iş proqramlarının hazırlanması prosesində ünsiyyətin təhsil prosesinin əsas elementi olduğunu nəzərə almaq vacibdir. Müasir təhsil standartlarında informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə mədəniyyətlərarası və çoxdilli ünsiyyət bacarıqlarına xüsusi diqqət ayrılır. Təhsil tapşırıqlarının böyük əksəriyyəti fərdi qaydada həyata keçirilsə də, qrup və ya cütlük şəklində olan tapşırıqlar nisbətən az yer tutur. Bunun əsas səbəblərindən biri qiymətləndirmənin çətinliyidir. Digər tərəfdən, bu, gələcək mütəxəssis kimi hər bir tələbənin bacarıqlarını müstəqil şəkildə inkişaf etdirməsi və müxtəlif kontekstlərdə qərarlar qəbul etmə bacarığı ilə bağlıdır.

Ali təhsilin ilk mərhələlərində – subbakalavriat və bakalavriat səviyyələrində – tələbələrin əsas diqqəti nəzəri biliklərə və ən yaxşı təcrübələrin öyrənilməsinə yönəlir (Kuklina, 2023, s. 28). Magistratura mərhələsində isə peşəkar təcrübənin qiymətləndirilməsi və tələbələrin öz mülahizələrini formalaşdırması önəmli yer tutur. Bu proses tələbənin şəxsi və peşə təcrübəsinə əsaslanan fikir və təcrübə mübadiləsini təşviq edir. Məsələn, təlimin pedaqoji istiqamətində sinif məşğələlərinin modelləşdirilməsi, dərsdənkənar fəaliyyətlər və bu fəaliyyətlərin metodoloji təhlili kimi layihələr geniş yayılmışdır.

Son dövrlərdə tədqiqat və tətbiqi layihələrin əhəmiyyəti əhəmiyyətli dərəcədə artmışdır. Bu layihələr təhsil prosesində yalnız nəzəriyyədən praktikaya keçid deyil, həm də tələbələrin müxtəlif fəaliyyət formatlarında iştirakını təmin edir. Universitetlərdə fərdi, cütlük və qrup şəklində layihələrin həyata keçirilməsi üçün tapşırıqların paylanması, monitorinqin aparılması və nəticələrin qiymətləndirilməsi kimi funksional yanaşmalar tətbiq edilir. Bu cür layihələr, xüsusilə, tələbələrin

analitik, kommunikativ və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar təqdim edir.

Təhsilin bütün səviyyələrində tələbələr üçün ən vacib bacarıqlardan biri də müstəqil öyrənmə və öz-özünü idarəetmə strategiyalarının inkişaf etdirilməsidir. Həyatda və təhsildə şəxsən qarşıya qoyulan məqsədləri vaxtında həyata keçirmək və bunun üçün müvafiq planlama bacarıqlarını mənimsəmək erkən mərhələlərdə əldə edilməli bir bacarıqdır. Müstəqil təhsil mühiti, tələbənin həm sosial, həm də akademik olaraq şəxsi məsuliyyət daşımasını tələb edir. Bəzi tələbələr işlərini əvvəlcədən planlaşdırmağı üstün tutarkən, bəziləri son anda işləri yekunlaşdırmaqdan həzz alır. Lakin istənilən halda, tələbələrin eyni vaxtda bir neçə tapşırıq üzərində işləyərək vaxtlarını düzgün idarə etmələri vacibdir.

Müstəqil öyrənmə yalnız təkbaşına oxumaq demək deyil. Tələbənin vaxtını necə idarə etdiyi və ondan nə dərəcədə faydalı istifadə etdiyi öyrənmə prosesinin əsas göstəricilərindəndir. Sərbəst iş bir çox tələbə üçün həmyaşıdlar arasında fikir mübadiləsi, digərləri üçün isə işlərinə fəal və sistemli yanaşma deməkdir. Beləliklə, tələbələr öz dərs vaxtlarından maksimum faydalanmağı öyrənməlidirlər. Bu məqsədlə, planlaşdırma bacarıqları, xüsusilə SMART (ölçülə bilən, çatdırıla bilən, realistik və vaxtlı) hədəflərinin təyin edilməsi kimi bacarıqların ilk kursdan etibarən aşılanması mühümdür. Müasir texnologiyalardan, məsələn, Google Təqvim kimi vasitələrdən istifadə, tələbələrə vaxtın idarə edilməsində və tapşırıqlarını izləməkdə böyük kömək ola bilər.

Müəllim-tələbə münasibətlərinin təşkili də müstəqil təhsilin səmərəliliyinə birbaşa təsir edir. Təcrübə göstərir ki, tələbələr çox nadir hallarda müəllimlər tərəfindən təklif edilən məsləhət saatlarından istifadə edir, sinifdən kənar elektron kommunikasiya (elektron poçt və ya sosial şəbəkələr vasitəsilə) imkanlarına müraciət edirlər. Bu, tələbələrin iş nəticələrinin keyfiyyətinə mənfi təsir göstərə bilər. Tələbələrin utancaqlıq və ya qorxu səbəbindən müəllimlə ünsiyyət qurmaqdan çəkinməsi, onların fərdi təhsil trayektoriyasını formalaşdırmaq üçün lazımi mənbələrdən istifadə imkanlarını məhdudlaşdırır. Buna görə də, müəllimlər tələbələrin özünəinamını artırmalı, onların aydın hədəflər qoymalarına dəstək olmalı və tədris tapşırıqlarını kiçik addımlarla yerinə yetirərək öyrənmə prosesini asanlaşdırmalıdırlar.

Kollec və universitet mühiti yalnız təlim, bilik əldə etmək deyil, həm də sual vermək, eksperiment aparmaq, səhvlərdən öyrənmək və müzakirələr üçün bir məkan olmalıdır. Tələbələrin sual verməyə, yanlışlıqlarından dərs almağa təşviq edilməsi onların özünəinamını artırır və daha səmərəli öyrənmə prosesinə təkan verir.

Ali təhsil pilləsinin magistratura səviyyəsində tələbələr arasında sərbəst işlərin nəticələri fərqli formalarda özünü göstərir. Ən çox rast gəlinənlər aşağıdakılardır: fərdi, cüt-cüt və ya kiçik qruplar şəklində həyata keçirilən layihələr (tədqiqat, strateji inkişaf, müdaxilə və s.), tədris proqramları, elmi məqalələr, eləcə də magistr dissertasiyalarının hazırlanması və təqdim edilməsi. Elmi konfranslarda iştirak da tələbələrin sərbəst fəaliyyətinin bir istiqaməti kimi xüsusi əhəmiyyət kəsb edir.

Sərbəst işlərin keyfiyyətinin artırılması üçün tələbələrin ümumi fikirlərinə görə, təklif olunan tapşırıqların təhsil istiqamətinə uyğunluğu vacibdir. Tələbələr bu tapşırıqların mümkün qədər aktual və praktik olmasını, müəllimlərdən isə aydın təlimat və nümunələrlə dəstək almağı gözləyirlər. Müəllimlərin təqdim etdiyi mənbələr və izahlar, həmçinin işin yekun nəticəsinin konkret nümunələri bu prosesdə xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, tələbələr mobil müəllimlərin auditoriyadan və kafedradan kənarda, sosial şəbəkələrdə və internet vasitəsilə daha əlçatan olmasını arzulayırlar.

Tələbələrin fikrincə, sərbəst işdə keyfiyyətin əsas göstəricisi çoxlu tapşırıqların yerinə yetirilməsi deyil, əksinə, bir və ya iki tapşırıq üzərində daha dərindən işləməkdir. Burada müxtəlif meyarlara görə iş nəticələrinin obyektiv qiymətləndirilməsi vacibdir. Tələbələr yalnız dövlət imtahanları və yekun ixtisas işlərinin müdafiəsinə yönləndirilməməli, onların hərtərəfli inkişafına imkan verən tapşırıqlar təklif olunmalıdır.

Müəllimlər də sərbəst işin təhsil səviyyələri arasında ardıcıl davamlılığı təmin etdiyini vurğulayırlar. Bakalavriat və magistratura səviyyələrində tələbələr tərəfindən hazırlanan ən yaxşı

işlər arasında müxtəlif növ layihələr, abstraktlar, təqdimatlar yer alırsa, doktorantura səviyyəsində bu, daha çox tədqiqat layihələri və elmi məqalələr kimi özünü göstərir.

Tələbələrin sərbəst işlərinin təşkili və həyata keçirilməsində müəllimlər üçün aşağıdakı aspektlər xüsusi əhəmiyyət kəsb edir: əvvəlcədən müəyyən edilmiş meyarlara əsaslanan obyektiv qiymətləndirmə, həmyaşıdların qiymətləndirmə mexanizmlərinin tətbiqi, tələbələrin özünə hörmətini artırmaq, fərdi və peşəkar inkişaf proqramlarının təşkili, informasiya-kommunikasiya texnologiyalarından (İKT) effektiv istifadə, tələbə konfranslarında iş nəticələrinin təqdim edilməsi, eləcə də tədris prosesi zamanı əldə edilən biliklərin praktiki tətbiqi.

Subbakalavriat və bakalavriat səviyyəsində tələbələrin sərbəst işləri ilə bağlı müəyyən çətinliklər də müşahidə olunur. Vaxt çatışmazlığı və iş ilə təhsilin uyğunlaşdırılmasında yaranan problemlər tez-tez rast gəlinir. Müəllimlər, əlavə olaraq, magistrantların zəif psixoloji və pedaqoji hazırlığı, xarici dillərə kifayət qədər yiyələnməməsi, magistratura qruplarında tələbə sayının çoxluğu, əsas vacib tapşırıqların vaxtında yerinə yetirilməməsi və bəzi tələbələrin məsuliyyətsiz yanaşmasını əsas maneələr kimi qeyd edirlər.

Sərbəst işlərin nəticələrinin qiymətləndirilməsində rast gəlinən problemlər isə bunlardır: işlərin gecikdirilməsi, süründürməçilik vərdişi, qiymətləndirmədə subyektiv yanaşma, və interdisiplinar yanaşmaya əsaslanan nəticələrin obyektivliyinin təmin olunmaması.

Universitet tədris prosesinin təşkilində və tələbələrin sərbəst işlərinin həyata keçirilməsində müxtəlif yanaşmaların tətbiqi ilə keyfiyyətin artırılması mümkündür. Pilot layihələrin nəticələrindən belə qənaətə gəlmək olar ki, tələbələr və müəllimlər sərbəst işlərin təşkili üçün daha konkret və sistemli yanaşmalar tələb edirlər ki, bunlara aşağıdakılar daxildir:

- sərbəst işlərin mövzusu fənlər və tədris planı ilə əlaqələndirilməlidir;
- onların qiymətləndirilməsi meyarları iş proqramında aydın təsvir olunmalıdır;
- ali və orta ixtisas təhsil müəssisələri tələbələri qarşılıqlı elmi əməkdaşlığa təşviq etməlidir;
- tələbələrin cəlb edilməsində maraqlı olan universitetin profil strukturları arasında müstəqil əməkdaşlıq və qarşılıqlı əlaqə yaratmaq lazımdır və s.

Beləliklə, tələbələrin sərbəst işi, onlarda müssətəqil təhsil bacarıqlarını, analitik düşüncəni və özünü idarəetmə səlahiyyətini formalaşdırmaq baxımından əhəmiyyətlidir. Araşdırmalar göstərir ki, təhsil prosesinin hər mərhələsində sərbəst işin formalarının dəyişməsi və çöxşəxslı yanaşma metodlarının tətbiqi tələbənin müsətəqillik dərəcəsini artırır. Eyni zamanda vaxt idarəçiliyinin təkmilləşdirilməsi və müsbət motivasiya mexanizmlərinin yaradılması vacib çətinlikləri həll etmək üçün çərçivə təşkil edir. Nəticə etibarilə, sərbəst işin keyfiyyətli həyata keçirilməsi, tələbənin akademik inkişafını və peşəkar bacarıqlarını əhəmiyyətli dərəcədə artıra bilər. Bununla yanaşı, müəllimlərin sərbəst işlərin təşikilində yaratdıqları şərait və metodların təkmilləşdirilməsi, özəlliklə texnologiya istifadəsi və obyektiv qiymətləndirmənin əlavə edildiyi yanaşmalar, əlavə irəliləyişləri təmin edə bilər. Bu istiqamətdə davam edən təkmilləşdirilmələr təhsil prosesinin ümumi keyfiyyətini artıracaq.

## Nəticə

Yuxarıda qeyd olunanları ümumiləşdirib belə qənaətə gəlmək mümkündür ki, ali təhsilin bakalavriat səviyyələrində təhsil alan tələbələrin (həmçinin orta ixtisas təhsil müəssisələrində təhsil alan subbakalavrların) sərbəst işləri təhsil prosesinin vacib tərkib hissəsi olmaqla, ali təhsil səviyyələri arasında qarşılıqlı əlaqənin təmin edilməsi və davamlılığın qorunması baxımından aktualdır. Bu sahədə görülən işlər və aparılan tədqiqatlar göstərir ki (Gavrilyuk & Sorochan, 2022; Ponomarova, 2017) sərbəst işlərin keyfiyyətinin yüksəldilməsi təkcə tələbələrdən deyil, həm də professor-müəllim heyətindən böyük səy və diqqət tələb edir. Əsas diqqət, tədris prosesinin məzmununun məntiqi davamlılığını təmin etməyə, tələbələrin fərdi və peşəkar inkişafına dəstək verməyə və onların müasir əmək bazarına uyğun kompetensiyalara yiyələnməsinə yönəlir. Ali təhsilin əsas vəzifəsi tələbələrdə yalnız bilik əldə etmək deyil, həm də müstəqil düşünmək, qərar qəbul etmək, analitik bacarıqlarını və özlərini inkişaf etdirmək qabiliyyəti yaratmaqdır ki, bu da müasir təhsil siyasətimizin strateji məsələsi kimi nəzərdən keçirilir. T.Əsgərovanın da qeyd etdiyi kimi, “yaradıcı təfəkkürə, müstəqil düşüncəyə və yüksək elmə malik şəxsiyyətin formalaşdırılması

müasir təhsil sisteminin əsas strateji məqsədlərindən biridir" (Əsgərova, 2022, s. 119). Məhz buna görə, sərbəst iş bu prosesdə mühüm alət kimi çıxış edir. Tələbənin sərbəst işi, onun bir problem üzərində düşünməyi, müxtəlif həll yollarını təhlil etməyi və müstəqil nəticələr çıxarmağı öyrəndiyi fəaliyyətlər toplusudur. Bu fəaliyyətlər tələbənin idrak qabiliyyətlərini artırmaq, özünü müstəqil öyrənmə prosesinə cəlb etmək və innovativ yanaşmaları təşviq etmək məqsədini güdür. Tələbələrin sərbəst işlərinin effektiv təşkili yalnız tələbələrin fərdi inkişafına deyil, həm də onların daha geniş peşəkar perspektivlər qazanmasına xidmət edir. Sərbəst işlər tələbənin tədris auditoriyası çərçivəsində və ondan kənarda müstəqil fəaliyyətini əhatə edir. Bu işlər, müəllimin rəhbərliyi ilə və ya tamamilə sərbəst şəkildə həyata keçirilə bilər və müxtəlif məzmun və metodoloji yanaşmalardan istifadəni əhatə edir. Geniş mənada sərbəst iş, tələbələrin fərdi və qrup şəklində müxtəlif tapşırıqlar üzərində işləmək bacarıqlarını inkişaf etdirən bütün fəaliyyət növlərini əhatə edir. Bu kontekstdə, metodoloji yanaşma sərbəst işlərin sistemli şəkildə təşkilini və onların ardıcıllığının təmin edilməsini əhatə edir. Əsas məqsəd, tələbələrin tədris prosesində əldə etdikləri bilikləri auditoriyadan kənarda sərbəst şəkildə tətbiq etməsi üçün lazımi şəraitin yaradılmasıdır. Bir çox yerli tədqiqatçılar təhsilalanların şəxsi keyfiyyətlərini yüksəltmək üçün kouçinqi əlavə təhsilin modeli kimi təhlil edərkən onu məhz pedaqoji alətlərdən biri kimi nəzərdən keçirmişdir (Cəbrayılov, Məmmədov, 2023, s. 57). Bu yanaşma tələbələrin tədqiqat bacarıqlarını inkişaf etdirmək, mövcud məlumatları təhlil etmək və yeni biliklər əldə etmək prosesində onlara dəstək olmaq məqsədini daşıyır.

Sonda vurğulamaq lazımdır ki, sərbəst iş tələbənin yalnız bilik deyil, həm də şəxsi və peşəkar keyfiyyətlərinin formalaşmasında mühüm rola malikdir. Təhsil proqramlarının düzgün strukturlaşdırılması və sərbəst işlərin səmərəli təşkili tələbələrin müstəqil öyrənmə və tətbiq bacarıqlarını artırır, onları müasir əmək bazarının tələblərinə uyğun olaraq daha hazırlıqlı edir.

## Ədəbiyyat

1. Cəbrayılov, İ., Məmmədov, N. (2023). Ömürboyu təhsil kontekstində kouçinq şəxsi keyfiyyətləri kamilləşdirən pedaqoji vasitə kimi. *Azərbaycan məktəbi*, 4(705), 55-63.
2. Əkbərov, N., Mirzəyeva, M. (2017). *Üzvi sintez: sərbəst işlər, sual və tapşırıqlar: ali məktəblər üçün dərs vəsaiti.* Azərbaycan Dövlət Pedaqoji Universiteti.
3. Əsgərova, T. (2022). Ədəbiyyat dərslərində şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsi metodları. *Azərbaycan məktəbi*, 2(699), 117-123.
4. Hüseynzadə, R. (2010). *Azərbaycan məktəb və pedaqoji fikir tarixi fənni üzrə proqram*. Azərbaycan Müəllimlər İnsitutu.
5. Gavrilyuk, N. P., & Sorochan, V. V. (2022). Informatsionno-obrazovatel'nyye tekhnologii kak sredstvo povysheniya effektivnosti obrazovatel'nogo protsessa pri podgotovke budushchikh uchiteley istorii. *Mir nauki, kul'tury, obrazovaniya*, 6(97), 271-274.
6. Kuklina, Ye. N., Maznichenko, M. A., & Mushkina, I. A. (2023). *Organizatsiya samostoyatel'noy raboty studenta: uchebnoye posobiye dlya vuzov* (2-ye izd.). Yurayt.
7. Ponomarova, Zh. V. (2017). *Samostoyatel'naya rabota studenta v ramkakh kursa akademicheskogo risunka: metodicheskiye ukazaniya*. Izdatel'skiy tsentr YUUrGU.
8. Sedakova, V. I. (2013). Samostoyatel'naya rabota studentov kak individual'naya trayektoriya razvitiya. *Vestnik*, 5, 108-116.

Daxil oldu: 21.09.2024
Baxışa göndərildi: 27.11.2024
Təsdiq edildi: 10.01.2025
Çap olundu: 30.01.2025